BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

SikaPaver® HC-1

Yarıquru beton qarışımları üçün sıxlaşdırmanı asanlaşdıran yüksək effektivlikli əlavə

TƏSVİR

SikaPaver® HC-1 yarıquru və ya sıfır çökməli betonun sıxlaşdırılmasını asanlaşdıran yüksək effektivliyə sahib əlavədir. Betonun qəlib içərisinə bərabər dolmasını, eyni zamanda beton elementin yan səthlərində sementli təbəqənin əmələ gəlməsini təmin etmək üçün xüsusi olaraq hazırlanmışdır.

İSTİFADƏ YERLƏRİ

- Beton səki daşları / daş döşəmələr
- Hörgü blokları və kərpiclər
- Bordür daşları
- Beton borular və toplama quyuları

ÜSTÜNLÜKLƏRİ

- Hətta aşağı dozalarda belə betonun sıxlaşdırılmasını effektiv şəkildə asanlaşdırır
- Yan səthlərdə aydın nəzərə çarpan sement pastası təbəqəsi əmələ gətirir
- Keyfiyyət fərqlərini və nəticədə ikinci növ məmulatların sayını azaldır

SikaPaver® HC-1, sementin, əlavələrin və piqmentlərin qarışıqda paylanmasını və islanmasını yaxşılaşdırır, bununla da nəzərdə tutulan sıxlığa daha qısa müddətdə çatmağa və ya eyni sıxlaşdırma səyi ilə məsamələri azaltmağa imkan verir.

TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS EN 934-2, 5-ci bölmə standardının tələblərini qarşılayır.

MATERIAL MƏLUMATI

Kimyəvi əsası	Səthi aktiv maddələrin qarışığı
Qablaşdırma	IBC : 1000 kg , Tökmə: min. 6 ton
Görünüş və rəng	Şəffaf Sarı, maye
Saxlama Müddəti	Orijinal, açılmamış qablaşdırmada lazımi qaydada saxlandıqda, istehsal tarixindən etibarən 12 ay. Uzun müddət saxlandıqdan sonra məhsulu istifadə etməzdən əvvəl qarışdırın.
Saxlama Şərtləri	Şaxtadan, intensiv günəş şüalarından və çirklənmədən qoruyun. Sisternlə tədarük zamanı istifadə olunan çənlər və avadanlıq təmiz olmalıdır.
Sıxlığı	1.0-1.02 kg/lt, +20°C-də
pH-Dəyəri	~ 7
Cəmi Xlorid ion miqdarı	≤ 0.10 %
Ekvivalent natrium oksidi	≤ 0.5 %

TƏTBİQ MƏLUMATI

Tövsiyyə olunan doza	Bağlayıcı maddənin (sement + uçucu kül) kütləsinin 0.1% - 0.4%-i
Əlavə Olunma	SikaPaver® HC-1 qarışdırma suyu ilə birlikdə və ya qarışdırma prosesinin sonunda əlavə edilməlidir. Qatqı dozalandıqdan sonra tələb olunan qarışdırma müddəti istifadə edilən qarışdırıcıdan asılıdır.
Məhdudiyyətlər	▪ İstifadədən əvvəl yararlılıq sınaqları aparılmalıdır. ▪ İstehsal olunan yarıquru beton elementlərin nəzərdə tutulan istismar göstəricilərini təmin etmək üçün həm əsas qatın, həm də üzlük qatının betonu kifayət qədər sıxlaşdırılmalıdır. Əlavə məlumat və məsləhət üçün Beton Texniki Xidmət Şöbəmizlə əlaqə saxlayın. ▪ SikaPaver® HC-1 axıcı konsistensiyalı betonun qəlibə tökülməsi üsulu ilə istehsal üçün uyğun deyil.

MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

Sika Azərbaycan MMC
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12